*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 422-430*

https://doi.org/10.62837/2025.10.422

**KƏRİMLİ AZƏR ELÇIN OĞLU**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisasının "Dövlət hüququ" ixtisaslaşmasının magistrantı***
***azerkerimli0118@gmail.com***

# ROMAN-ALMAN HÜQUQ AİLƏSİNİN TARİXİ ƏSASLARI VƏ HÜQUQİ XÜSUSİYYƏTLƏRİ

## Giriş

Roman-alman hüquq ailəsinin öyrənilməsi bu gün həm hüquq nəzəriyyəsi, həm də hüquqi praktika baxımından böyük əhəmiyyət kəsb edir, çünki bu hüquq sistemi müasir dünyada geniş yayılmış hüquq ailələrindən biri kimi bir çox ölkələrin hüquqi infrastrukturunun əsasını təşkil edir. Mülkiyyət hüququ, müqavilə hüququ, borc öhdəlikləri, hüquqi şəxslər və hüquqi prosedurlar kimi fundamental sahələr üzrə hüquqi münasibətlərin necə formalaşdığını anlamaq üçün bu sistemin tarixi inkişaf mərhələləri və struktur xüsusiyyətləri dərin şəkildə öyrənilməlidir. Azərbaycanda da hüququn inkişafı və qanunvericilik sahəsində aparılan islahatlar kontekstində bu hüquq ailəsinin əsas prinsipləri ilə tanışlıq normativ hüququn sistemləşdirilməsi və tətbiqi prosesində faydalı ola bilər. Eyni zamanda, hüquqşünasların hüquqi təfəkkürünün formalaşmasında məntiqi, ardıcıl və elmi əsaslandırma metodlarının inkişafı baxımından Roman-alman hüquq sisteminin öyrənilməsi hüquqi təhsil və hüquqi şüurun yüksəldilməsi üçün zəruridir.

Bu baxımdan, tədqiqatımızın məqsədi Roman-alman hüquq ailəsinin tarixi əsaslarını və hüquqi struktur xüsusiyyətlərini öyrənərək onun hüquqi düşüncəyə təsirini qiymətləndirməkdir. Tədqiqatda müqayisəli-hüquqi, tarixi və analitik təhlil metodlarından istifadə olunmuş, Roma hüququndan müasir Alman hüququna qədər olan inkişaf ardıcıllığına diqqət yetirilmiş, əsas mənbələr və hüquq məktəblərinin rolu elmi kontekstdə araşdırılmışdır.

## Roma hüququndan alman hüququna: tarixi təkamülün mərhələləri

Roma hüququnun əsası eramızdan əvvəl V əsrdə Romada şəhər-dövlət quruluşunun tələblərinə uyğun olaraq qoyulmuşdur. Bu dövrdə hüquq sisteminin əsas məqsədi vətəndaşlar arasında ədalətli münasibətlərin təmin edilməsi və ictimai nizamın qorunması idi. Qanunvericiliyin ilk rəsmi forması kimi eramızdan əvvəl 451–450-ci illərdə qəbul edilmiş "On iki lövhə qanunu" (*Lex Duodecim Tabularum*) Roma hüququ tarixində dönüş nöqtəsi oldu. Bu qanunlar ictimaiyyət qarşısında Forum Romanumda lövhələr üzərində sərgilənmiş və hüququn şəffaf şəkildə tətbiqinə şərait yaratmışdı. "On iki lövhə qanunu" yalnız hüquqi normalar deyil, həm

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 10, 2025
Səh. 422-430

də Roma vətəndaşının gündəlik həyatını tənzimləyən sosiomədəni prinsipləri əks etdirirdi [9].

Klassik Roma hüququ dövrü eramızın I əsrindən III əsrin ortalarına qədər olan dövrü əhatə edir və bu mərhələ hüquqi təfəkkürün ən yüksək inkişaf səviyyəsi ilə xarakterizə olunur. Bu dövrdə hüquq yalnız praktiki fəaliyyət sahəsi kimi deyil, eyni zamanda elmi tədqiqat predmeti kimi inkişaf edirdi. Məşhur hüquqşünaslar — Qay (Gaius), Ulpian (Domitius Ulpianus), Papinian və Paul (Julius Paulus) kimi alimlər hüquq elmini sistemləşdirdilər. Qayın "İnstitusiyalar" əsəri sonralar Justinian dönəmində hüquq təhsilinin əsas kitablarından birinə çevrildi. Bu dövrdə hüquq norma və prinsiplərinin məntiqi ardıcıllıqla qurulması, hüquqi kateqoriyaların (məsələn, şəxsi hüquq, ailə hüququ, əmlak hüququ və sair) ayrılması baş verdi ki, bu da hüquq sisteminə ciddi sistematiklik gətirdi [3].

Roma imperiyasının güclənməsi ilə hüquqi sistem də imperiyanın ehtiyaclarına uyğun olaraq mərkəzləşdirildi və sistemləşdirildi. Eramızın VI əsrində imperator I Justinian tərəfindən həyata keçirilən hüquqi islahatlar nəticəsində "Corpus Juris Civilis" adlı geniş hüquq toplusu hazırlandı. Bu toplu dörd hissədən ibarət idi: "İnstitutlar" (Institutes), "Digestlər" (Digesta), "Kodeks" (Codex) və "Novellalar" (Novellae). "*Corpus Juris Civilis*" yalnız Roma hüququnun Sistemləşdirilməsi deyildi, həm də sonrakı yüzilliklər ərzində Avropa hüquq düşüncəsinin formalaşmasında əsas mənbəyə çevrildi. Bu hüquq toplusu Bizansda qüvvədə qaldığı kimi, orta əsr Avropasında da hüquqi nüfuzunu qorudu [2].

Mülkiyyət, müqavilə və hüquqi şəxslərlə bağlı hüquqi anlayışlar klassik dövrdə dərinləşdirilərək müasir mülki hüququn əsaslarını yaratdı. Mülkiyyət hüququ "dominium" kimi başa düşülür, sahibinə tam sərəncam vermək hüququnu tanıyırdı. Müqavilə hüququnda isə "consensus" prinsipi, yəni tərəflərin razılığı hüquqi öhdəliyin əsas şərti kimi qəbul olunurdu. Hüquqi şəxslər konsepsiyası da bu dövrdə formalaşmağa başlamış və ictimai təsisatlara hüquqi subyektlik verilməsi ilə nəticələnmişdir. Bu anlayışlar hüquqi mexanizmlərin daha çevik və kompleks hala gəlməsinə yol açmış, son nəticədə Avropa hüquq sistemlərinin strukturunda dərin iz buraxmışdır.

Qərbi Roma imperiyasının 476-cı ildə süqutu ilə birlikdə antik dövrün bir çox intellektual və institusional irsi kimi Roma hüququ da ictimai və hüquqi praktikadan tədricən uzaqlaşdı. Yerli feodal hüquqları, adət normaları və kilsə hüququ hüquqi tənzimin əsas qaynaqları oldu. Lakin Roma hüququ tamamilə unudulmadı, onun bəzi elementləri Bizans imperiyasında qorundu və daha sonra Avropa hüquqşünaslarının diqqətini cəlb etdi. Orta əsr Avropasında hüququn elmi şəkildə öyrənilməsi isə XI əsrdə Bolonya Universitetində İmperator I Justinianın hüquq toplusu "Corpus Juris Civilis"in yenidən kəşfi ilə yeni mərhələyə qədəm qoydu. Bu universitet hüquq elminin mərkəzinə çevrildi və burada başlayan hüquqi canlanma bütün Qərbi Avropaya yayılmağa başladı [10].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 422-430*

Bu dövr "Glossatorlar dövrü" kimi tanınır və həmin hüquq alimləri əsasən Justinianın hüquq mətnlərini izah etməklə məşğul olurdular. Glossatorlar – İrnerius, Bulqarus, Martinus, Huqo və Yakob hüquqi mətnlərin arasına qısa izahlar ("glossa") əlavə edir, normativ mətnlərin mənasını aydınlaşdırmağa çalışırdılar. Onların məqsədi Roma hüququnu sistemləşdirmək və onu dövrün hüquqi reallıqlarına uyğun şəkildə tətbiq etmək idi. Glossatorların fəaliyyəti nəticəsində Roma hüququ yenidən hüquq tədrisinin əsasına çevrildi və Avropa universitetlərində hüquq fakültələrinin əsas kurs proqramı oldu. Roma hüququ artıq yalnız tarixi bir mətn kimi deyil, yaşayan bir hüquq sistemi kimi öyrənilməyə və tətbiq edilməyə başlandı.

XIII əsrdə isə "Post-glossator"lar (yaxud Komentatorlar) mərhələsi başlandı. Bu yeni hüquqşünas nəslin nümayəndələri – Bartolus de Saxoferrato və Baldus de Ubaldis kimi alimlər hüquqi mətnlərin izahını hüquqi təhlillə birləşdirərək hüquqi norma ilə real həyat arasındakı əlaqəni daha da gücləndirdilər. Onlar Roma hüququnun prinsiplərini o dövrün konkret hüquqi və sosial problemlərinə tətbiq edərək praktik hüququ formalaşdırdılar. Beləliklə, Roma hüququ təkcə akademik sferada deyil, məhkəmə praktikasında da yenidən aktuallıq qazandı. Bu dirçəliş nəticəsində Avropada vahid hüquq düşüncəsi formalaşdı və bu, sonrakı yüzilliklərdə kontinental hüquq sistemlərinin, xüsusilə Fransa və Almaniyada mülki hüquq kodekslərinin əsas təməli oldu [1].

XIII–XIX əsrlər arasında Almaniyada hüquq sistemi ikili təbiət daşıyırdı: bir tərəfdən yerli adət hüququ (Landrecht), digər tərəfdən isə universitetlərdə tədris olunan və hüquqi praktikada tətbiq edilən Roma hüququ (gelehrtes Recht – "alimlərin hüququ"). Bu paralel hüquq sistemləri arasında münasibət heç də rəqabətli deyil, əksinə, sintezə yönəlik idi. Roma hüququ, xüsusilə Yustinianın *Corpus Juris Civilis* əsasında tədris olunan hüquqi prinsiplər alman hüquq sisteminə dərin təsir göstərdi. Bu təsir daha çox şəhər hüququnda (Stadtrecht), məhkəmə qərarlarında və hüquq təhsili sahəsində müşahidə edilirdi. Hüquqşünaslar və hakimlər universitetlərdə Roma hüququ öyrənir və məhkəmə təcrübəsində onu tətbiq edirdilər. Beləliklə, yerli hüquqi praktika ilə Roma hüququ arasında qarşılıqlı təsir formalaşdı.

Bu dövrün əsas hüquqi xüsusiyyəti usus modernus Pandectarum adlanan hüquqi yanaşmanın meydana gəlməsidir. Bu anlayış "Pandektlərin müasir istifadəsi" mənasını verir və Roma hüququ prinsiplərinin müasir Alman hüquqi ehtiyaclarına uyğunlaşdırılmasını nəzərdə tutur. Usus modernus məktəbi xüsusilə XVII və XVIII əsrlərdə geniş yayıldı və hüquqi sistemdə Roma hüququnun adaptasiyası ilə yanaşı, milli elementlərin də qorunmasına çalışdı. Bu sintezləşdirici yanaşmanın nəticəsində alman hüquq təfəkküründə Roma hüququ artıq yalnız bir model deyil, elmi baza rolunu oynamağa başladı. Pandektologiya adlanan bu sahə (Roma hüququnun sistematik şəkildə öyrənilməsi və təsnifatı) hüquqşünaslıqda elmi dəqiqliyin əsas simvoluna çevrildi və XIX əsrdə kodifikasiya səylərinə intellektual zəmin hazırladı.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 422-430*

XIX əsrdə Almaniya birləşmə yoluna qədəm qoyduqca, hüquqi sistemdə vahidlik yaratmaq zərurəti daha qabarıq şəkildə hiss olunurdu. 1871-ci ildə Alman İmperiyasının qurulmasından sonra, federativ struktura malik olan ölkədə müxtəlif regionların (Prussiya, Bavariya, Saksoniya və s.) öz hüquq sistemləri vardı. Bu hüquqi parçalanma iqtisadi və hüquqi münasibətlərdə çətinliklər yaradırdı. Beləliklə, mərkəzləşdirilmiş və sistemləşdirilmiş hüquqi aktlara olan ehtiyac Alman Mülki Məcəlləsinin (Bürgerliches Gesetzbuch – BGB) hazırlanmasına gətirib çıxardı. 1881-ci ildə ilk layihə hazırlanmağa başlandı və uzunmüddətli müzakirələrdən sonra 1900-cü ildə BGB qüvvəyə mindi. Bu kodifikasiya yalnız hüquqi norma toplusu deyil, həm də hüquq elminin tətbiqi nəticəsi kimi qəbul edilir.

Alman Mülki Məcəlləsi əsasən Roma hüququ prinsipləri əsasında tərtib olunsa da, o, eyni zamanda alman hüquqi mədəniyyətinin və yerli hüquq ənənələrinin də təcəssümüdür. Pandektologiyanın təsiri ilə BGB beş hissəyə bölünmüşdür: Ümumi hissə (*Allgemeiner Teil*), Borc hüququ (*Schuldrecht*), Mülkiyyət hüququ (*Sachenrecht*), Ailə hüququ (*Familienrecht*) və İrs hüququ (*Erbrecht*). Bu struktur Roma hüququnun təsnifat sistemini xatırlatsa da, məcəllə alman hüquq praktikasının tələblərinə uyğunlaşdırılmışdır. Nəticə etibarilə, Roma hüququnun elmi-sistematik irsi ilə alman hüququnun praktik-realist yanaşması sintez olunaraq BGB-ni Avropanın ən nüfuzlu və davamlı mülki məcəllələrindən birinə çevirmişdir. Bu kodifikasiya həm Almaniya daxilində hüquqi vahidliyi təmin etdi, həm də digər ölkələr üçün nümunəvi model rolunu oynadı [4].

**Roman-alman hüquq sisteminin strukturu və onun hüquqi düşüncəyə təsiri**

Roman-alman hüquq sisteminin ən xarakterik cəhətlərindən biri hüquqi normaların yazılı şəkildə sistemləşdirilərək kodlaşdırılmasıdır. Bu sistemdə hüquq qaydaları ümumi prinsiplərlə başlayır və sonra konkret hüquqi münasibətləri tənzimləyən maddələrlə davam edir. Məsələn, Almaniya Mülki Məcəlləsi (BGB) 1900-cü ildə qüvvəyə minmiş və beş hissədən ibarət strukturla hüquqi münasibətlərin geniş spektrini tənzimləyən fundamental sənəd kimi qəbul edilmişdir. Eyni şəkildə, Fransa Mülki Məcəlləsi (Code civil) 1804-cü ildə qəbul olunaraq Napoleon hüququ adı ilə tanınmış və Qərbi Avropanın bir çox ölkələrində hüquqi model kimi istifadə olunmuşdur. Kodifikasiya hüquqi sabitlik, hüquq normalarının əlçatanlığı və hüquqi münasibətlərin əvvəlcədən öyrənilə bilməsi baxımından mühüm üstünlük yaradır.

Roman-alman hüquq sistemində hüquq yalnız ümumi şəkildə deyil, sahələr üzrə təsnif olunmuş şəkildə qurulur. Hüquq sahələri – mülki hüquq, inzibati hüquq, cinayət hüququ və prosessual hüquq sistem daxilində ayrıca prinsiplərlə işlənmiş və kodlarla tənzimlənmişdir. Məsələn, İsveçrədə mülki münasibətləri tənzimləyən İsveçrə Mülki Məcəlləsi (ZGB) ilə yanaşı, cinayət və prosessual hüquq da ayrıca normativ aktlarla formalaşdırılmışdır. Bu yanaşma hüquqi münasibətlərin daha spesifik şəkildə tənzimlənməsinə imkan verir və hər bir sahədə hüquqi

mexanizmlərin sistematik və ardıcıl şəkildə qurulmasını təmin edir. Hüquq sahələrinin fərqli olması hüquqşünasların ixtisaslaşmasına da şərait yaradır ki, bu da hüquqi ekspertizanın keyfiyyətini artırır [6].

Kodifikasiya və sahəvi strukturun birgə fəaliyyəti nəticəsində Roman-alman hüquq sistemində hüquqi sabitlik və öngörülə bilənlik təmin edilir. Bu, hüquqi təhlükəsizlik prinsipinin əsas dayaq nöqtələrindən biridir. Məsələn, bir şəxs hansısa mülki hüquqi əməliyyat aparmaq istədikdə (məsələn, müqavilə bağlamaq, miras qəbul etmək və s.), onun hüquq və vəzifələri məcəllə vasitəsilə öncədən dəqiq müəyyən edilir. Məhkəmələr isə məhz bu yazılı hüquq normalarına əsaslanaraq qərar verir və beləliklə hüquqi münasibətlərdə təsadüfi və subyektiv yanaşmaların qarşısı alınır. Bu sabitlik yalnız vətəndaşlar üçün deyil, biznes, dövlət idarəçiliyi və beynəlxalq əməkdaşlıq sahələri üçün də hüquqi mühitin etibarlı olmasına zəmanət verir. Nəticə etibarilə, Roman-alman hüquq sistemi hüququ rasional və sistemli bir mexanizmə çevirir.

Roman-alman hüquq sistemi təkcə normativ hüququn tətbiqinə deyil, həm də hüququn elmi əsaslarla sistemləşdirilməsinə xüsusi əhəmiyyət verir. Bu hüquq ailəsində hüquq yalnız praktiki normativ tənzimləmə vasitəsi kimi deyil, rasional düşüncə üsulu və elmi bilik sahəsi kimi formalaşdırılmışdır. Hüququn elmi təhlili xüsusilə Almaniyada inkişaf etmiş Pandekt hüququ məktəbi ilə sistemli xarakter almışdır. XIX əsrin ortalarında Friedrich Carl von Savigny-nin rəhbərlik etdiyi tarixi hüquq məktəbi hüququ tarixi və sosial kontekstlərlə izah etməyə çalışmış, hüququn “xalq ruhu”ndan doğduğunu vurğulamışdır. Bu elmi yanaşma hüququn formal və məntiqi strukturunu gücləndirmiş, hüquqi təfəkkürdə təhlilə və əsaslandırmaya əsaslanan mədəniyyət yaratmışdır [5].

Pandektologiya Roman-alman hüquq sisteminin intellektual dayağına çevrilmişdir. Pandekt hüququnun məqsədi hüquqi münasibətləri ümumi, ardıcıl və məntiqi sistemə salmaq idi. Məsələn, Almaniya Mülki Məcəlləsi (BGB) bu prinsiplərlə hazırlanaraq, hüquqi anlayışları (şəxs, hüquqi əməliyyat, borc, öhdəlik, mülkiyyət və s.) sistematik şəkildə qurmuş və bu yanaşma hüquqi təhsil sistemində də öz əksini tapmışdır. Hüquqşünaslar hüquqi məsələləri yalnız praktiki baxımdan deyil, həm də anlayışlararası əlaqələr və hüquqi məntiq baxımından təhlil etməyə öyrədilirlər. Bu metodoloji dəqiqlik hüquqi qərarların əsaslandırılmasını daha rasional və intellektual müstəviyə daşıyır.

Roman-alman hüquq sistemində hüquqi qərarlar təkcə maddənin mətni ilə izah edilmir, həm də həmin maddənin sistemdəki yeri, onun digər normalarla əlaqəsi və hüquqi məqsəd nəzərə alınmaqla əsaslandırılır. Bu, sistematik və teleoloji şərh metodlarının inkişafına səbəb olmuşdur. Hüquqşünaslar normanı kontekstdə şərh etməklə yanaşı, onun funksiyasını da dərk etməyə çalışırlar. Belə əsaslandırma tərzi hüquqi qərarların obyektivliyini artırır və hüquq tətbiqini təsadüflərdən qoruyur. Hüququn bu cür elmi və məntiqi əsaslarla qurulması hüquqi təfəkkürün dərinliyini və

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 422-430*

peşəkar hüquq mədəniyyətinin keyfiyyətini yüksəldir. Bu da hüquqşünasların yalnız hüquq bilən deyil, hüquq düşünən mütəxəssislər kimi yetişməsinə şərait yaradır [8].

Roman-alman hüquq sistemində hüquqi münasibətlərin tənzimlənməsi əsasən yazılı mənbələr, yəni qanunverici orqanlar tərəfindən qəbul olunmuş normativ hüquqi aktlar vasitəsilə həyata keçirilir. Bu sistemdə hüquq mənbələrinin iyerarxiyasında konstitusiya, qanunlar və məcəllələr ən yüksək hüquqi qüvvəyə malikdir. Məhkəmələrin hüquqi məsələlərə yanaşması da bu normativ mənbələrə əsaslanır; yəni hakimin vəzifəsi qanunu yaratmaq deyil, mövcud normanı düzgün tətbiq etməkdir. Məsələn, Almaniya və Fransada məhkəmə qərarları mənbə kimi tanınsa da, bu qərarlar normativ gücə malik deyil və yalnız məhdud presedent dəyəri daşıyır. Belə struktur hüquqi münasibətlərdə sabitlik, normativ ardıcıllıq və hüquqi etimad yaradır.

Roman-alman hüquq sistemində məhkəmələrin funksiyası əsasən mövcud qanunvericilik çərçivəsində mübahisələri həll etməkdir. Hakimlər qanunlarda göstərilən müddəaları tapmalı, onu aidiyyəti hüquqi situasiyaya uyğunlaşdırmalı və tətbiq etməlidirlər. Bu prosesdə sistematik və teleoloji şərh metodları geniş tətbiq olunur. Sistematik şərh normanın digər normativ aktlarla əlaqəli şəkildə təhlilini əhatə edir, teleoloji şərh isə normanın məqsədinə əsaslanaraq interpretasiya aparmağı nəzərdə tutur. Məsələn, bir mülki hüquq norması yalnız öz mətni ilə deyil, bütövlükdə məcəllənin prinsipləri və məqsədləri ilə uyğunlaşdırılaraq tətbiq olunur. Bu yanaşma hüquqi əsaslandırmanı gücləndirir və qərarların məntiqi ardıcıllığını təmin edir [7].

Yazılı hüququn üstünlüyü və məhkəmələrin qanuna əsaslanaraq qərar verməsi həm hüquqşünasların, həm də cəmiyyətin hüquq sisteminə olan inamını gücləndirir. Hüquqşünaslar hüquqi arqumentasiyanı normativ mətnlərə və onların sistematik şərhinə əsaslanaraq qururlar ki, bu da hüquqi təfəkkürdə normativ məntiqin mərkəzi yer tutmasına səbəb olur. Digər tərəfdən, bu model vətəndaşlara və sahibkarlara hüquqi davranışlarını əvvəlcədən planlaşdırmaq, hüquqi riskləri hesablamaq və mübahisəli hallarda hüquqi nəticələri proqnozlaşdırmaq imkanı yaradır. Belə bir hüquqi sabitlik mülki dövriyyənin təhlükəsizliyini artırır, investisiya mühitini yaxşılaşdırır və ümumilikdə hüquqi dövlət prinsipinin möhkəmlənməsinə xidmət edir.

## Nəticə

Roman-alman hüquq ailəsi qədim Roma hüququndan qaynaqlanan və yüzilliklər ərzində Alman hüquqi düşüncəsinin sistemli təsiri ilə formalaşan hüquq sistemidir. Bu sistem təkcə hüquqi normativlərin toplusu deyil, həm də hüququn elmi şəkildə qurulması, hüquqi sabitliyin təmin edilməsi və hüquqşünas təfəkkürünün inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Tarixi təkamül prosesi göstərir ki, Roma hüququnun klassik prinsipləri və onların Alman hüququnda sistemləşdirilmiş

tətbiqi nəticəsində bu hüquq ailəsi Avropada və ondan kənarda hüquqi modelə çevrilmişdir. Tədqiqat əsasında aşağıdakı nəticələr ortaya çıxır:

– Roma hüququnun dirçəlişi və Bolonya hüquq məktəbi orta əsr Avropasında hüququn elmi əsaslarla tədrisini və hüquqi sistemlərin ümumavropa səviyyəsində bərpasını təmin etmişdir.

– *Usus modernus Pandectarum* və Pandektologiya Alman hüquq düşüncəsində Roma hüququnun müasir tələblərə uyğunlaşdırılması və elmi sistemə çevrilməsində həlledici rol oynamışdır.

– Alman Mülki Məcəlləsi (BGB) Roman hüququ prinsiplərinin sistematik və praktik yanaşma ilə birləşdirilməsi nəticəsində yaranmış və hüquqi sabitliyi təmin edən nümunəvi normativ sənədə çevrilmişdir.

– Roman-alman hüquq sisteminin strukturu yazılı hüququn üstünlüyü, hüququn sahələrə ayrılması və kodifikasiya prinsipi sayəsində hüquqi münasibətlərdə sabitlik, şəffaflıq və öngörüləbilənlik yaratmışdır.

– Hüququn elmi əsaslarla əsaslandırılması və normativ mətnlərə dayanan hüquqi arqumentasiya hüquqşünasların analitik bacarıqlarını gücləndirmiş, hüquqi qərarların intellektual keyfiyyətini artırmış və hüquq sisteminə olan ictimai etimadı möhkəmləndirmişdir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Çataklı, C.E. Die beendigung des gesetzlichen güterstandes durch den tod im deutschen und im Türkischen recht- unter besonderer berücksichtigung rechtshistorischer perspektive. Universität des Saarlandes, 2018. 226 s.
2. Gstach, J.J. A Short History of Roman Law. Vienna, 2022. URL: https://roemr.univie.ac.at/fileadmin/user_upload/i_roemisches_recht/Publikationen/A_Short_History_of_Roman_Law_2022.pdf
3. Hazard, J.N. & others. Roman law. Encyclopedia Britannica. URL: https://www.britannica.com/topic/Roman-law
4. In civil law: The German system. Encyclopedia Britannica. URL: https://www.britannica.com/topic/German-law
5. Kniffka, H. Working in Language and Law: A German Perspective. London: Palgrave Macmillan, 2007. 308 p.
6. Markesinis, B.S. & others. The German Law of Contract: A Comparative Treatise. London: Hart Publishing, 2006. 1034 p.
7. Markesinis, B.S. & Unberath, H. German Law of Torts: A Comparative Treatise. London: Hart Publishing, 2002. 1127 p.
8. Payne, J. Takeovers in English and German Law. London: Hart Publishing, 2002. 194 p.
9. Sandalcı, S. On iki levha yasaları. İstanbul: İstanbul Üniversitesi, 1993. 78 s.

## Xülasə

Bu məqalədə Roman-alman hüquq ailəsinin tarixi əsasları və hüquqi-struktur xüsusiyyətləri təhlil olunur. Əvvəlcə Roma hüququnun eramızdan əvvəl V əsrdə "On iki lövhə qanunu" ilə formalaşması və sonralar Justinian dövründə "*Corpus Juris Civilis*" vasitəsilə sistemləşdirilməsi izah edilir. Roma hüququ yalnız antik dövrün hüquqi praktikasına deyil, həm də sonrakı Avropa hüquq sistemlərinin əsasına çevrilmiş elmi-hüquqi irsə çevrilmişdir. XI əsrdən başlayaraq Bolonya Universitetində Roma hüququnun dirçəlişi, Glossator və Post-glossator məktəbləri vasitəsilə hüququn yenidən elmi əsaslarla öyrənilməsi və tətbiqinə şərait yaratmışdır. Məqalənin növbəti hissəsində XIII–XIX əsrlərdə Almaniyada hüquqi sintez prosesi – *usus modernus Pandectarum* və Roma hüququnun Alman hüququna inteqrasiyası araşdırılır. Alman hüquqşünasları Roma hüququ prinsiplərini milli hüquqa uyğunlaşdıraraq Pandekt hüququ adlanan sistematik hüquq elminin əsasını qoymuş və bu intellektual baza XIX əsrin sonunda qəbul edilən Alman Mülki Məcəlləsinə (BGB) zəmin hazırlamışdır. Məcəllə həm Roma hüququnun klassik təsnifatını, həm də Alman hüquqi praktikasının xüsusiyyətlərini özündə birləşdirərək Avropada nüfuzlu və davamlı hüquq sisteminə çevrilmişdir. Roman-alman hüquq sisteminin strukturu – kodifikasiya, hüququn sahələrə bölünməsi, sistemli və teleoloji şərh metodlarının tətbiqi hüquqi sabitlik, normativ ardıcıllıq və hüquqi proqnozlaşdırıla bilənlik baxımından üstünlüklər yaradır. Hüququn elmi arqumentasiya ilə əsaslandırılması və məntiqi quruluşu hüquqşünasların analitik düşüncə tərzinin formalaşmasına mühüm töhfə verir.

**Açar sözlər:** Roman hüququ, alman hüququ, pandektologiya, kodifikasiya, hüquqi təfəkkür.

**Резюме**

В данной статье рассматриваются исторические основы и структурные особенности романо-германской правовой семьи. Сначала анализируется формирование римского права в V веке до н.э. посредством «Законов двенадцати таблиц» и его последующая систематизация в эпоху Юстиниана в составе свода законов «Corpus Juris Civilis». Римское право стало не только практической правовой системой древности, но и научным наследием, оказавшим влияние на формирование правовой мысли в Европе. С XI века начинается возрождение римского права в Болонском университете, где благодаря глоссаторам и постглоссаторам римские тексты заново осмысливаются и применяются в современной правовой практике. Далее статья освещает процесс правового синтеза в Германии XIII–XIX веков — *usus modernus Pandectarum* и интеграцию римского права в немецкую правовую систему. Немецкие юристы, адаптируя римские принципы к национальному контексту, заложили основы пандектной науки, которая в дальнейшем легла в основу Германского гражданского уложения (BGB), вступившего в силу в 1900

году. Этот кодекс объединил римскую правовую классификацию и практические реалии германской юриспруденции, став одной из самых влиятельных правовых систем Европы. Структура романо-германской правовой семьи — кодификация, деление на отрасли, применение систематического и телеологического толкования обеспечивает нормативную стабильность, логическую непротиворечивость и предсказуемость правовых решений. Научное обоснование права способствует развитию аналитического мышления у юристов и укреплению правовой культуры.

**Ключевые слова:** Римское право, Германское право, пандектология, кодификация, правовое мышление.

**AZER ELCHIN OGLU KARIMLI**

## HISTORICAL FOUNDATIONS AND LEGAL CHARACTERISTICS OF THE ROMANO-GERMANIC (CIVIL LAW) LEGAL FAMILY

**Summary**

This article explores the historical foundations and structural characteristics of the Romano-Germanic legal family. It begins with the development of Roman law in the 5th century BC through the “Twelve Tables” and its subsequent codification under Emperor Justinian in the Corpus Juris Civilis. Roman law evolved into not only a functional legal system of antiquity but also a scientific legacy that significantly influenced European legal thought. Starting in the 11th century, Roman law was revived at the University of Bologna, where glossators and post-glossators reinterpreted the ancient texts and reintroduced them into academic and legal practice. The article then examines the process of legal synthesis in Germany from the 13th to the 19th centuries, known as *usus modernus Pandectarum*, and the integration of Roman law into the German legal tradition. German legal scholars adapted Roman legal principles to the national context, laying the intellectual groundwork for the Pandect system, which later informed the drafting of the German Civil Code (BGB), enacted in 1900. This code merged classical Roman classification with the practical needs of German jurisprudence and became one of the most influential civil codes in Europe. The structure of the Romano-Germanic legal system—codification, division into legal branches, and the use of systematic and teleological interpretation—ensures legal stability, coherence, and predictability. The scientific foundation of law fosters the development of analytical thinking among legal professionals and contributes to a more robust legal culture.

**Keywords:** Roman law, German law, pandectology, codification, legal thinking.

**Rəyçi:** tarix üzrə fəlsəfə doktoru, hüquq kafedrasının dosenti Rahib Əkbərov.